

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 8 (23.895)

*14 yanvar 2022-ci il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının yanvarın 13-də Gülüstan sarayında təməlqoyma mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib. Dövlətimizin başçısı tədbirdə çıxış edib.

Prezident İlham Əliyev çıxışında bildirib ki, təməli qoyulan stansiya Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verəcəkdir. Bu stansiya Azərbaycanda bərpa olunan enerji sektorunda ən böyük elektrik stansiyası olacaqdır. Onun istehsal gücü 240 meqavatdır. Dövlətimizn başçısı bərpa olunan bu böyük enerji layihəsinin icraçısı və investorunun qardaş Səudiyyə Ərəbistanının şirkəti olmasından məmnunluğunu ifadə edib.

Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səudun çıxışından sonra Prezident İlham Əliyev və şahzadə Əbdül Əziz bin Salman Əl-Səud stansiyanın təməlini qoyublar.

***

Prezident İlham Əliyev yanvarın 13-də Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səudun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.






# Naxçıvan müasir inkişaf mərhələsində

*Dünya siyasət aləmində öz yerini hələ sağlığında ikən tutan görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyevin xalqımız qarşısındakı xidmətləri tariximizin qızıl səhifələrini təşkil edir. Klassik alman filosofu Hegel belə tarixi şəxsiyyətlər haqqında deyirdi: "Onlar məhz ona görə böyük simalar sayılırlar ki, böyük, ədalətli və zəruri işlər görmüşlər". Bu işlər mənsub olduğun xalqa, dövlətə ən böyük xidmət nümunəsidir və bu gün qürur duyuruq ki, həmin xidmətlər hər bir azərbaycanlının həyatında özünü göstərib.*

Ulu öndərin quruculuq xəttinin davamı sonrakı dövrdə də Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişafını təmin etmişdir. Ötən dövrdə Naxçıvanda ulu öndərin siyasi kursunun uğurla davam etdirilməsi, əzmkarlıq, siyasi iradə və ən əsası yüksək vətənpərvərlik nümunəsi blokada şəraitində də hərtərəfli inkişafın mümkünlüyünü göstərdi. Bu gün inkişaf etdirilmiş və əsaslı şəkildə yenidən qurulmuş Naxçıvan Muxtar Respublikası ***"Mənim ayrıca bir fəaliyyət proqramım olmayacaqdır. Fəaliyyətimi görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edəcəyəm"***, – deyən qurucu RƏHBƏRİN Vətən və torpaq sevgisinin təzahürüdür.

Xalqımızın ümummilli lideri Heydər Əliyev demişdir: ***"Mən, ümumiyyətlə, demək istəyirəm ki, Naxçıvanda işlər lazımi səviyyədə gedir. Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun bir çox xüsusiyyətlərini bilirdim. Amma o, çox gənc idi. Daxilən bir az fikirləşdim ki, gəncliyinə görə, bəlkə də, ağır, çətin olar. Ancaq o sübut etdi ki, Vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq, böyük işlər görə bilər".***

Muxtar respublikada inkişaf mərhələ-mərhələ, planlı şəkildə, düşünülmüş formada və perspektivə hesablanaraq həyata keçirilir. Hər şeydən əvvəl, təhlükəsizliyin təmin olunması üçün təxirəsalınmaz addımlar atılmışdır. Nizam-intizam gücləndirilmiş, sənaye və kənd təsərrüfatının inkişafı üçün sahibkarlığa geniş meydan verilmiş, təhsil, səhiyyə və digər sosial sahələrin inkişafı təmin olunmuşdur. Genişmiqyaslı tikinti-quruculuq işlərinə başlanılmış, şəhər və kəndlər abadlaşdırılmış, yeni yollar, körpülər salınmış, məktəblər, xəstəxanalar, idman kompleksləri istifadəyə verilmişdir. Bütün yaşayış məntəqələrində müasir standartlara uyğun infrastruktur layihələri həyata keçirilmişdir. Belə layihələr kəndlə şəhər arasında fərqi ortadan qaldırmışdır. Görülmüş işlərin nəticəsidir ki, artıq bu gün dağ-sərhəd kəndlərində yaşayan sakinlər də şəhərtipli səhiyyə və mədəniyyət müəssisələrindən istifadə edir, yüksəksürətli internet xidmətlərindən yararlanır, rayon mərkəzləri və ya paytaxt Naxçıvan şəhərinə rahat yollarla gedib-gəlirlər. Kənd yaşayış məntəqələrində yaradılmış yeni xidmət mərkəzləri əhalinin keyfiyyətli yerli ərzaq və təsərrüfat malları ilə təminatına, müxtəlif iaşə xidmətlərindən istifadəsinə geniş imkanlar açıb.

Bu gün blokada şəraitində yaşayan muxtar respublikada əldə olunmuş inkişaf Vətən naminə çəkilən gərgin əmək və misilsiz əzmkarlığın təcəssümüdür. Muxtar respublikanın bütün parametrlər üzrə iqtisadi sabitliyə və davamlı inkişafa nail olunmuş, daxili imkanlardan səmərəli istifadə edilmiş, müdafiə, ərzaq və enerji təhlükəsizliyi təmin olunmuş, sosial layihələrin əhatə dairəsi genişləndirilmişdir. Müstəqillik illərində muxtar respublikada ümumi daxili məhsul istehsalının həcmi 69 dəfə, sənaye məhsulunun həcmi 117 dəfə, kənd təsərrüfatı məhsullarının həcmi 15 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 141 dəfə, əsas kapitala yönəldilən vəsaitlər 348 dəfə, nəqliyyat sektorunda yük daşınması 27 dəfə, pərakəndə əmtəə dövriyyəsi 49 dəfə, əhali gəlirləri isə 61 dəfə artmışdır. Muxtar respublikada 232 elm və təhsil ocağı, 362 mədəniyyət obyekti, 251 səhiyyə obyekti, 29 idman obyekti, 352 inzibati bina, 61 nasos stansiyası, 328 subartezian quyusu, 109 körpü, 1346 istehsal və xidmət sahəsi tikilmiş, 3918,3 kilometr uzunluğunda avtomobil yolu yenidən qurulmuşdur. Bütün sahələrdə əldə olunan nailiyyətlər əhalinin məşğulluğunu da təmin etmiş, 98 min 775 iş yeri açılmışdır.

Ulu öndərimiz Azərbaycanın inkişaf strategiyasını müəyyənləşdirərkən təhsil quruculuğunu həmişə ön planda saxlayırdı. Elm və təhsili davamlı iqtisadi inkişafın əsası hesab edən dahi şəxsiyyət deyirdi: ***"Hər bir dövlət əgər istəyirsə ki, öz inkişafını təmin etsin, o, mütləq hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir".*** Muxtar respublikada həyata keçirilən islahatların mərkəzində də təhsil infrastrukturunun müasirləşdirilməsi dayanır. Elm və təhsil quruculuğu inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilib. Ötən dövrdə müasir informasiya texnologiyaları ilə təmin olunmuş 200-dən artıq məktəb binası istifadəyə verilib, orta ixtisas və ali təhsil müəssisələri üçün yeni tədris korpusları tikilib, peşə məktəbləri yaradılıb. Bu gün Naxçıvan şəhərində də, ucqar dağ kəndlərində də şagirdlər kompüterlərdən, elektron lövhələrdən, müasir laboratoriyalardan, fondunda on minlərlə ədəbiyyat olan kitabxanalardan və sürətli internetdən istifadə edirlər. Məqsəd vətənpərvər və təhsilli gənc nəsil yetişdirməkdir. İctimai-siyasi, iqtisadi-mədəni həyatda gənclərin fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi diqqət mərkəzində saxlanılır. Gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq Dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi, gənclərin həyat şəraitinin, xüsusilə onların mənzil təminatının yaxşılaşdırılması göstərilən qayğının təzahürüdür.

Müstəqillik illərində muxtar respublikada AMEA Naxçıvan Bölməsinin yaradılması və fəaliyyətinin təşkili, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin, Bilik Fondunun, Elmin İnkişafı Fondunun yaradılması da elmə və təhsilə göstərilən yüksək dövlət qayğısının daha bir ifadəsidir.

Naxçıvan Muxtar Respublikasında xüsusi mülkiyyətin, kiçik və orta sahibkarlığın inkişafı diqqət mərkəzində saxlanılır. Sahibkarlara göstərilən dövlət maliyyə dəstəyinin həcminin ildən-ilə artırılması, bu sahədə fəaliyyətə süni müdaxilələrin aradan qaldırılması, bir sıra vergi və gömrük güzəştlərinin tətbiqi sahibkarlıq fəaliyyətinin inkişafına öz təsirini göstərmişdir. Sahibkarlığın inkişafı sahəsində yaradılan şəraitin nəticəsidir ki, ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi artmış, 1346 istehsal və xidmət sahəsi yaradılmışdır.

Sənaye ilə yanaşı, aqrar sahənin inkişafı da diqqət mərkəzindədir. Suvarma suyuna olan tələbatın ödənilməsi, aqrolizinq xidmətinin yaradılması nəticəsində kənd təsərrüfatı texnikaları ilə təminatın yaxşılaşdırılması əkinçini torpaqdan ikiəlli yapışmağa sövq edib. Bunun nəticəsidir ki, əkin sahələri və məhsul istehsalı ilbəil artırılır. Ötən dövrdə kənd təsərrüfatı məhsullarının həcminin 15 dəfə artması ərzaq təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə vermişdir. Artıq aqrar sahəyə diqqət və qayğı yüzlərlə ailə təsərrüfatı formalaşdırmışdır ki, bu da özünüməşğulluğa mühüm töhfə verir. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən kompleks tədbirlər, sənaye və aqrar sahənin inkişafında müsbət nəticələrin əldə olunması, yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, investisiya imkanlarının artması sürətli inkişaf tempinin qorunub-saxlanmasına, əhalinin rifahının yaxşılaşmasına və sosial problemlərin həllinə səbəb olub.

Naxçıvanın bugünkü inkişafı asan başa gəlməyib. Əvvəllər enerji qıtlığından əziyyət çəkən, ciddi problemlər məngənəsində sıxılıb qalan muxtar respublikanın ötən dövrdə əldə etdiyi ən böyük uğurlardan biri də enerji təhlükəsizliyinin təmin edilməsidir. Bir zamanlar enerjini idxal hesabına əldə edən Naxçıvan Muxtar Respublikası indi enerji ixracatçısına çevrilib. Enerji təchizatı üzrə 60 meqavat gücündə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası, Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası, 87 meqavat gücündə Naxçıvan Modul Elektrik Stansiyası, 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası, 20,5 meqavat gücündə "Arpaçay-1" Su Elektrik Stansiyası və 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik Stansiyası, 32 meqavatlıq Günəş Elektrik stansiyaları, Culfa rayonunda 1,1 meqavat gücündə Külək-Günəş Hibrid Elektrik Stansiyası istifadəyə verilmişdir. Əgər 2003-cü ilin sonuna muxtar respublikada 1 elektrik stansiyası fəaliyyət göstərirdisə, 2021-ci ildə bu göstərici 11-ə çatdırılmışdır. Naxçıvanda elektrik enerjisinə olan tələbatın 65 faizdən çoxu alternativ və bərpa olunan enerji mənbələri hesabına ödənilir ki, bu da inkişaf etmiş ölkələr üçün çox nadir göstərici hesab edilir.

Enerji təhlükəsizliyinin təmin olunması muxtar respublikada sənayenin inkişafına zəmin yaradıb, müstəqillik illərində sənaye məhsulunun həcmi 117 dəfə artıb, yüzlərlə sənaye müəssisəsi istifadəyə verilib. Vaxtilə ümumi daxili məhsul istehsalında aqrar sahənin ağırlıq təşkil etdiyi muxtar respublika bu gün sənaye-aqrar regionuna çevrilib. Sənaye sahəsinin aparıcı mövqedə olduğu müasir iqtisadiyyatın qurulması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində son illər ciddi uğurlar qazanılıb. Fəaliyyəti dayandırılmış sənaye müəssisələrinin fəaliyyətinin bərpa edilməsi və yeni istehsal sahələrinin yaradılması, nəticə etibarı ilə, əvvəllər istehsal olunmayan yeni sənaye məhsullarının istehsalına və ümumilikdə, sənaye məhsulu istehsalının dinamik artımına səbəb olub. Bu sahənin inkişafının nəticəsidir ki, indi Naxçıvanda avtomobildən hər cür tikinti materialına qədər, ərzaqdan geyimə qədər hər cür məhsul istehsal olunur.

Blokada vəziyyətində yaşayan Naxçıvanda əsas məsələlərdən biri də ərzaq təhlükəsizliyinin yerli imkanlar hesabına təmin olunmasıdır. Müxtəlif sahələr üzrə qəbul edilmiş Dövlət proqramlarının icrası muxtar respublikada

*Ardı 2-ci səhifədə*

yerli istehsalın həcminin artmasına, əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatına geniş imkanlar yaradıb. Əvvəllər zəruri ərzaq və sənaye məhsullarına olan tələbatını tamamilə idxal hesabına ödəyən muxtar respublikada bu gün 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir, ixrac potensialı getdikcə artır.

Bir vaxtlar muxtar respublika əhalisi bir tərəfdən erməni işğalı, digər tərəfdən, sözün həqiqi mənasında, aclıq təhlükəsi ilə üz-üzə qalmışdı. Şaxtalı qış günlərində yaşayış məntəqələrində yaranan çörək növbələrində çəkilən əziyyətlər hələ də yaddaşlardan silinməyib. Gecələr evində çıraq lampası yandıran, həyətindəki meyvə ağaclarını kəsib isinən, yarıac-yarıtox yatan naxçıvanlılar ərzaqla da, enerji ilə də özlərini təmin edəcəklərinə, bu gününü yox, gələcəklərini düşünəcəklərinə, ağac əkib yaşıllıqlar salacaqlarına, bir sözlə, evində, yurdunda rahat yaşayacaqlarına inana bilmirdilər.

Müstəqillik illərində muxtar respublikada 16 min hektardan artıq sahədə meşəsalma və meşəbərpa işləri aparılmışdır. Bu gün Naxçıvanda genişmiqyaslı yaşıllaşdırma proqramı həyata keçirilir. İndi elə bir şəhər, elə bir qəsəbə, elə bir kənd tapmaq olmaz ki, orada yaşıllıqlar, gülkarlıqlar, meyvə bağları salınmasın. Əgər ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublikada yaşıllıqların ümumi sahəsi 0,6 faiz idisə, hazırda 20 faizdən artıqdır. Hazırda tingçilik təsərrüfatlarında yetişdirilən meyvə və həmişəyaşıl tinglər, gül və bəzək kolları daxili tələbatı tam ödəyir.

Muxtar respublikada inkişafı xarakterizə edən əsas cəhətlərdən biri də tikinti-quruculuq işlərinin həcminin ilbəil artmasıdır. Hər il yaşayış məntəqələrində yeni inzibati binaların və sosial obyektlərin istifadəyə verilməsi, yeni yolların çəkilməsi əhalinin rahat yaşayışına xidmət edir. 2021-ci ildə muxtar respublikada 355 sosial və inzibati obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilmiş, 149 obyektdə tikinti və yenidənqurma işləri isə davam etdirilmişdir.

İnkişaf göstəriciləri rabitə və yeni texnologiyalar sahəsini də əhatə edib. Əhaliyə nümunəvi rabitə xidmətinin göstərilməsi məqsədilə müasir rabitə sistemi yaradılıb, ən ucqar dağ kəndlərində belə, genişzolaqlı, yüksəksürətli internet və digər müasir telekommunikasiya şəbəkələri istifadəyə verilib. Hazırda muxtar respublikada istismar olunan avtomat telefon stansiyalarının 90 faizindən çoxu yeni nəsil texnologiyalara əsaslanır. Qürurla qeyd edə bilərik ki, bu gün muxtar respublikada tam kəsintisiz telekommunikasiya sistemi mövcuddur, diyarımızın beynəlxalq trans-Avrasiya fiber-optik magistrallarına ikitərəfli çıxışı da təmin edilib. Muxtar respublikanın hazırda qlobal internet sisteminə dördtərəfli çıxışı var, bütün yaşayış məntəqələrinin genişzolaqlı sabit və 4-cü nəsil mobil internet xidmətlərindən istifadəsi reallaşdırılıb.

Müstəqillik dövründə muxtar respublikada 200-dən çox səhiyyə ocağı tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. ***"Hansı cəmiyyətdə sağlam insan çoxdursa, o cəmiyyətdə inkişaf davamlı olur. Bu səbəbdən də insan sağlamlığı dövlətimizin qarşısında duran əsas vəzifələrdəndir. Dövlət bu işdə üzərinə düşən vəzifələri yerinə yetirir, müasir səhiyyə müəssisələri tikərək əhalinin istifadəsinə verir"***, – deyən Ali Məclisin Sədri cənab Vasif Talıbovun muxtar respublikada həyata keçirdiyi səhiyyə islahatları sosial siyasətin başlıca istiqamətlərindən biridir. Muxtar respublikada Diaqnostika Müalicə Mərkəzinin, Naxçıvan Muxtar Respublika Xəstəxanasının, Doğum Mərkəzinin, Duzdağ Fizioterapiya Mərkəzinin, rayon mərkəzi xəstəxanalarının, Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının və digər səhiyyə obyektlərinin istifadəyə verilməsi, tibb müəssisələrinin ən müasir avadanlıqlarla təmin olunması və icbari tibbi sığortanın tətbiqi insan amilinə verilən qiymətin bariz nümunəsidir.

Muxtar respublikamızda mədəniyyətə, milli-mənəvi dəyərlərə, tarixi irsə göstərilən qayğını da muxtar respublika rəhbərinin bu sahələrə böyük önəminin ifadəsi kimi dəyərləndirmək olar. Bu günə qədər muxtar respublikada 1216 abidənin qeydə alınaraq tədqiq edilməsi, onlardan 70-dən çoxunun bərpa edilməklə xalqımızın qədim tarixi irsi kimi ona yenidən qaytarılması da bunun ifadəsidir. Bu sırada "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri"nin YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilməsi də xüsusi vurğulanmalıdır.

Ümumilikdə, bütün sahələr üzrə əldə edilən uğurlar Azərbaycanın Naxçıvan Muxtar Respublikasının nüfuzunun getdikcə yüksəlməsinə öz töhfəsini verir, Naxçıvan beynəlxalq idman tədbirlərinə, elmi konfranslara, festivallara ev sahibliyi edir. 2018-ci ildə Naxçıvan şəhəri İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı seçilib, Naxçıvanda "Avropa günləri", Türk Şurası Gənc Liderlərinin ilk forumu, eləcə də TÜRKSOY-un "Türk-İslam əxlaq fəlsəfəsinin qurucu memarları: Türküstandan Anadoluya irfan məktəbinin alimləri" mövzusunda ilk dəfə beynəlxalq konfransı keçirilib.

Muxtar respublikamızın yeni inkişaf tempi kimi bir faktı göstərmək kifayətdir ki, cənab İlham Əliyev dövlət başçısı kimi fəaliyyəti dövründə dəfələrlə Naxçıvan Muxtar Respublikasına səfərlər etmiş, onun iştirakı ilə 100-ə yaxın təhsil, səhiyyə, idman və mədəniyyət müəssisələrinin, istehsal sahəsi və hərbi təyinatlı obyektlərin açılışı olmuşdur. Ötən ilin may ayının 10-da muxtar respublikaya rəsmi səfərə gələn ölkə Prezidenti cənab İlham Əliyevin qədim diyarımızda bir neçə obyektin açılışında iştirakı, burada görülən işləri yüksək dəyərləndirməsi hər kəsi qürurlandırdı. Azərbaycan Televiziyasına verdiyi müsahibədə reallaşan layihələrin, öz həllini tapmış məsələlərin onu çox sevindirdiyini diqqətə çatdırması qədim yurd yerində inkişaf və tərəqqinin yeni mərhələyə qədəm qoymasının dövlət başçısı tərəfindən təsdiqi idi. Ölkə Prezidenti demişdir: ***"Muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır".***

Günbəgün inkişaf edən, müasirləşən, abadlaşan Naxçıvan bu gün mənfur düşmən üçün ikiqat gözdağıdır. Ona görə ki, qədim diyarda əsası ümummilli lider tərəfindən qoyulan ordu quruculuğu siyasəti bu gün uğurla davam etdirilir. Naxçıvanda Əlahiddə Ümumqoşun Ordu ən müasir silah və texnikalarla təmin olunmuş, şəxsi heyətin peşəkarlığı dəfələrlə artırılmışdır. Müstəqillik illərində 306 müxtəlif təyinatlı hərbi obyekt tikilərək, yenidən qurularaq və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin nəticəsidir ki, Əlahiddə Ümumqoşun Ordu muxtar respublikanın ərazisini qorumaqla yanaşı, İkinci Qarabağ müharibəsində də əsl rəşadət və vətənpərvərlik nümunəsi göstərdi. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev çıxışlarında bunu dəfələrlə yüksək dəyərləndirib: ***"İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər".***

*Ümummilli liderimiz Heydər Əliyev deyirdi:* ***"Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin".*** *Bu gün Naxçıvan Muxtar Respublikası xalqımızın ümummilli lideri Heydər Əliyevin arzularının reallaşdığı möhtəşəm məkandır. Ulu öndərin göstərdiyi yolla qətiyyətlə irəliləyən, onun istəklərini, arzularını, gələcək haqqında planlarını addım-addım yerinə yetirən Naxçıvanda əldə olunan bütün nailiyyətlər Vətənə və xalqa xidmət nümunəsidir. Bu nümunə ulu öndərin dövlətçilik məktəbinin layiqli davamçısı – muxtar respublikanın Qurucu RƏHBƏRİNİN Heydər Əliyev ideyalarına sədaqətinin ifadəsidir. Ölkə Prezidentinin də dediyi kimi:* ***"Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir. Hər bir azərbaycanlı üçün əziz, doğma diyardır və Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün ulu öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax, bu inkişafda təcəssüm etdirir".***

**"Şərq qapısı"**



## Quruculuq işləri
## Şərurun simasına əlavə gözəlliklər qatıb

*Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərurda ötən il də kompleks quruculuq, təmir-bərpa işləri davam etdirilib.*

Belə tədbirlər rayonun ucqar dağ və sərhəd kəndləri də daxil olmaqla bütün yaşayış məntəqələrini əhatə edib. 2021-ci ildə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 77 milyon 156 min manat və ya 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çox vəsait yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 1,5 faiz artaraq 74 milyon 254 min manat təşkil edib.

Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanına əsasən tikintisi aparılan Şərur Sənaye Məhəlləsində 3 istehsal sahəsinin inşası davam etdirilib.

"Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində tədbirlərin həyata keçirilməsi diqqətdə saxlanılıb. Kəndlərdə kiçikhəcmli emal müəssisələrinin yaradılması ilə bağlı 32 kənddə maarifləndirici tədbir həyata keçirilib, sənaye müəssisələrinin yaradılmasına lazımi dövlət dəstəyi göstərilib. Qışlaqabbas kəndində tikiş sexi, Siyaqut kəndində isə süd və süd məhsullarının istehsalı sahəsi fəaliyyətə başlayıb.

Məlumatda bildirilir ki, bəhs olunan dövrdə Şərur şəhərində zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olan 40 mənzilli yaşayış binasının və həmin binada yerləşən xidmət sahələrinin, Bayraq və Saat meydanlarının, Dövlət Sosial Müdafiə Fondu Şərur Rayon Şöbəsi üçün inzibati binanın, Şəhidlər xiyabanının, Kapitan Seyidov küçəsində iaşə obyektlərinin, 1 yaşayış binasının, "Şəfa" Özəl Xəstəxanasının, 28 May və Nizami küçələrini birləşdirən yeraltı piyada keçidinin tikintisi, yaxud yenidən qurulması başa çatdırılıb. Rayon mərkəzində Mədəniyyət Sarayının, Avtovağzal binasının, Mərkəzləşdirilmiş Kitabxana Sisteminin və Uşaq kitabxanasının, "Universam"ın, Dəmir yolu İdarəsinin dövriyyə deposunun və təmir sexinin, Elektrik Təmas Şəbəkəsinin tikintisi və yenidən qurulması işləri davam etdirilir. Şahriyar və Dərvişlər kəndlərində tam orta məktəb binasının, kənd və xidmət mərkəzlərinin, səhiyyə və mədəniyyət müəssisələrinin tikintisi və yenidən qurulması işləri başa çatdırılaraq istifadəyə verilib. Çərçiboğan kəndində aparılan tikinti və yenidənqurma işləri, demək olar ki, başa çatdırılıb.

İllərdir ki, muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərdən Şərur rayonuna da xeyli pay düşüb. Ötən il də həmin tədbirlər davam etdirilib. Rayonun Ərəbyengicə kəndində "N" sərhəd zastavası üçün yeni xidmət və yaşayış kompleksləri istifadəyə verilib, Şərur Sərhəd Komendaturasının inzibati binasında və Alışar kəndindəki sərhəd zastavasında inşaat işləri yüksək keyfiyyətlə davam etdirilib, 2 hərbçiyə mənzil təqdim olunub. 2021-ci ildə 9 şəhid ailəsi və sağlamlıq imkanları məhdudlaşmış 1 Vətən müharibəsi iştirakçısına mənzil verilib, bu sosial kateqoriyaya aid olan 7 Vətən müharibəsi iştirakçısına isə minik avtomobili təqdim edilib, 3 şəhid ailəsinin mənzil-məişət şəraiti yaxşılaşdırılıb.

"Mədəniyyət yoldan başlanır" deyimi bu bölgəmizdə də öz təsdiqini tapıb. Əminliklə demək olar ki, 2021-ci ildə bu istiqamətdə daha çox iş görülüb. Bəhs olunan dövrdə Naxçıvan-Sədərək magistralından Şərur şəhərinədək, həmçinin şəhərin Heydər Əliyev prospektini və 6 küçəsini əhatə edən 11 kilometrlik avtomobil yolunun, Ərəbyengicə kəndində "N" sərhəd zastavasına gedən yolun, eyni zamanda Şəhriyar və Dərvişlər kəndlərində kənddaxili yolların yenidən qurulması başa çatdırılıb, Xanlıqlar-Kərimbəyli, Xanlıqlar-Aşağı Daşarx-Siyaqut-Yuxarı Daşarx kəndlərini birləşdirən avtomobil yollarının yenidən qurulması işləri davam etdirilib.

Son illər muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Bu sahədə görülən işlərin davamı kimi Zeyvə kəndində 5 meqavat gücündə Günəş Elektrik Stansiyası istifadəyə verilib. Rayonun elektrik enerjisinə olan illik tələbatı 75 milyon kilovat-saata yaxındır. Bunun da, 10 faizini illik istehsal gücü 7,5 milyon kilovat-saat olan yeni stansiya ödəyir. Həmin ərazidə, hazırda əlavə olaraq, 3 meqavatlıq Günəş Elektrik Stansiyasının tikintisi davam etdirilir. "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatının və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Sərxanlı kəndində içməli su xəttinin, Ərəbyengicədə 4 subartezian quyusunun tikintisi başa çatdırılması da ötən ilin quruculuq tədbirləri sırasındadır.

**Muxtar MƏMMƏDOV**

## Sosial müdafiə tədbirləri ötən il də uğurla davam etdirilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində 2021-ci il ərzində görülən işlər və qarşıda duran vəzifələrə dair kollegiya iclası keçirilib. İclasda çıxış edən nazir Nicat Babayev bildirib ki, "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası çərçivəsində ötən il 2972 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin olunmuş, onlardan 622 nəfərini əmək yarmarkalarında işə göndərilənlər təşkil etmişdir. Bəhs olunan dövrdə 1566 nəfər ailə üzvündən ibarət 330 ailə özünüməşğulluq proqramına cəlb edilmişdir ki, bu da 2020-ci illə müqayisədə 39 ailə çox deməkdir.



Diqqətə çatdırılmışdır ki, son illər muxtar respublikada xüsusi qayğıya ehtiyacı olan şəxslərə göstərilən xidmətlərin həcmi və keyfiyyəti artırılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində təkcə ötən il Vətən müharibəsində böyük şücaət göstərən 28 şəhid və qazinin ailələri mənzillərlə, 28 nəfər müvafiq kateqoriyadan olan şəxs isə minik avtomobilləri ilə təmin olunmuşdur. Vətən müharibəsi qazilərindən əyani müayinə əsasında 52 nəfərə sağlamlıq imkanlarının məhdudlaşması ilə bağlı təyinat aparılmış, 62 ailə özünüməşğulluq proqramına cəlb edilmiş, məşğulluq sahəsində keçirilən digər tədbirlərdə bu kateqoriyadan olan şəxslərə üstünlük verilmişdir. Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, müharibə iştirakçıları və yaralananlar üçün yaradılmış Psixoloji Dəstək Xidmətində 40-dan çox şəxslə seanslar aparılmışdır.

Qeyd olunmuşdur ki, ötən müddət ərzində 124 şəhidin 246 ailə üzvünə müvafiq vəsiqələr verilmiş, şəhidlərin 283 ailə üzvünə Prezident təqaüdü, 42 uşaq üçün sosial müavinət, 3 nəfərə Vətən Müharibəsi Qəhrəmanı üçün Prezident təqaüdü təyin edilmişdir. Bununla yanaşı, bu sahədə göstərilən xidmətləri əhatə edən elektron baza hazırlanaraq istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 dekabr tarixli Fərmanı əsasında yaradılmış "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu"nun vəsaitləri hesabına, müvafiq kateqoriyadan olan 24 şəxsin muxtar respublika xaricində müalicə və müayinəsinə köməklik göstərilmiş, 17 nəfərin kredit borcları ödənilmiş, 35 ailənin isə məişət şəraiti yaxşılaşdırılmışdır.

Nicat Babayev çıxışının davamında bildirib ki, sağlamlıq imkanları məhdud şəxslərin tibbi reabilitasiyanın günün tələbləri səviyyəsində təşkili məqsədilə bərpa müəssisələrinin fəaliyyəti davam etdirilmiş, 20 adda müasir tibbi avadanlıqlar alınmış və müayinə otaqlarında bütün zəruri şərait yaradılmışdır. İl ərzində bərpa mərkəzlərində 545 nəfərin müalicələri təşkil edilmiş, 305 şəxsə protez və ortopedik xidmətlər göstərilmiş, 716 nəfər reabilitasiya vasitələri ilə təmin olunmuşdur.

Ötən il hərəkət qabiliyyəti məhdud uşaqlar üçün təşkil olunmuş distant tədris prosesinə yeni cəlb edilən şagirdlər zəruri dərs ləvazimatları və texniki avadanlıqlarla təmin olunmuşdur. Hazırda Distant Tədris Mərkəzində 15, Görmə Qabiliyyəti Məhdud Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə 7 və Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində 8 nəfər eşitmə və danışma qabiliyyəti məhdud şəxslə distant dərslər davam etdirilir.

Məruzə ətrafında çıxışlar olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Ötən ilin yekunları müzakirə olunub



Yanvar ayının 13-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Rəyasət Heyətinin iclası keçirilib. İclasda 2021-ci ildə muxtar respublika məhkəmələrinin fəaliyyətinin yekunları müzakirə olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev 2021-ci ildə Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, muxtar respublikanın ixtisaslaşdırılmış, şəhər və rayon məhkəmələri tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi, vətəndaşların hüquq və azadlıqlarının qorunması, hüquqi maarifləndirmə sahəsində görülmüş işlər haqqında ətraflı məlumat verib.

Ali Məhkəmənin sədri muxtar respublikanın ixtisaslaşdırılmış və rayon (şəhər) məhkəmələri tərəfindən baxılıb nəticə verilmiş mülki və digər işlər üzrə çıxarılmış qətnamə və qərardadlardan verilmiş apelyasiya şikayətlərinin nəticələrini və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kassasiya şikayəti verilmiş qərarlarının sabitlik göstəricilərini ətraflı təhlil edib.

Qeyd olunub ki, hüquqi-maarifləndirmə sahəsində də bir sıra işlər görülüb, ötən ildə milli qanunvericiliyə edilən əlavələr və dəyişikliklər barədə muxtar respublikada yaşayan əhali arasında hüquqi təbliğat və izahat işləri aparılması sahəsində bir sıra tədbirlər həyata keçirilib.

Sonra Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsinin sədri Hicran Muradov, Ağır Cinayətlər Məhkəməsinin sədri Hüseyn Məmmədov, Hərbi Məhkəmənin sədri Polad Həsənov, Kommersiya Məhkəməsinin sədri Elşən Salmanov və muxtar respublikanın şəhər və rayon məhkəmə sədrlərinin 2021-ci il ərzində görülən işlərə dair məlumatları dinlənilib, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin qərarı qəbul edilib. Qərarda muxtar respublikanın ixtisaslaşdırılmış, şəhər və rayon məhkəmələrinə 2022-ci ildə işlərə baxılarkən Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş əsas insan və vətəndaş hüquq və azadlıqlarının qorunması, qanunvericiliyin tələblərinə riayət edilməsi istiqamətində fəaliyyətlərini daha da gücləndirmələri, vətəndaşlardan daxil olmuş müraciətlərə “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq baxılmasını təmin etmələri, səyyar məhkəmə iclaslarının keçirilməsinə, qanunvericiliyə gətirilən yeniliklərlə bağlı əhali arasında hüquqi maarifləndirmə işinin genişləndirilməsinə, məhkəmələrdə fəaliyyət göstərən kitabxanaların qanunvericilik aktları və hüquq ədəbiyyatı ilə zənginləşdirilməsinə, eləcə də qanunvericiliyin sistemləşdirilməsi işinin təşkilinə xüsusi diqqət yetirmələri və digər məsələlər tövsiyə olunub.



Ötən ilin yekunlarına həsr olunan iclasda Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti publik hüquqi şəxsin direktoru Bəxtiyar Məmmədov çıxış edərək bildirib ki, qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində ötən il ərzində muxtar respublikada sığortanın daha da inkişafı məqsədilə ardıcıl işlər aparılıb. Nəticədə, xidmət tərəfindən 2021-ci ildə həyat və qeyri-həyat sığorta sinifləri üzrə 6-sı icbari, 13-ü könüllü olmaqla, 19 sinif üzrə aktiv sığorta yığımı həyata keçirilib, 2020-ci ilin yekunu ilə müqayisədə bir çox sığorta növündə artımlar olub.

Ötən dövrdə görülmüş işləri təhlil edən direktor diqqətə çatdırıb ki, sığorta haqlarının yığımında 2020-ci illə müqayisədə daşınmaz əmlakın icbari sığortası üzrə 3, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə 4, könüllü sığortalardan fiziki şəxslərə məxsus əmlakın sığortasında, ümumilikdə, 13, sahibkarlara məxsus əmlakın yanğın və digər əlavə risklərdən sığortası üzrə 34, kənd təsərrüfatı heyvanlarının sığortası üzrə 24 faiz artım olub.

Həyata keçirilən yeni sığorta növlərinə də toxunan direktor qeyd edib ki, ötən il dövlət sığorta xidməti tərəfindən 4 adda yeni kasko sığorta məhsulu yaradılıb və istifadəyə verilib. Bildirilib ki, gələcəkdə əhalinin tələbatı nəzərə alınaraq digər sığorta növləri üzrə də yeni məhsulların hazırlanması nəzərdə tutulur.

Qeyd olunub ki, qarşıya qoyulmuş səyyar sığorta xidmətinin əhatə dairəsinin genişləndirilməsi vəzifəsinin icrası istiqamətində həyata keçirilən işlər nəticəsində ötən il həmin işlərin həcmində 10 faiz artım olub, 5 rayon, 1 şəhər, 6 qəsəbə və 106 kənddəki sakinlər səyyar sığorta xidmətindən faydalanıblar.

Diqqətə çatdırılıb ki, muxtar respublikada ailə təsərrüfatlarının inkişafı istiqamətində onların sığortalanması da diqqətdə saxlanılıb, ötən il ərzində 82 ailə təsərrüfatı subyekti sığortalanıb. Ötən il muxtar respublikada fəaliyyət göstərən meyvə, tərəvəz, gülçülük və göbələk təsərrüfatları ilə, ümumilikdə, 84 ədəd sığorta müqaviləsi bağlanılıb ki, bu da bir il öncəki dövrlə müqayisədə 5,6 dəfə çoxdur.

Sonra çıxışlar olub.

* * *



“Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətində keçirilən kollegiya iclasında cəmiyyətin sədri Vasif Məmmədov məruzə ilə çıxış edib. Bildirilib ki, cəmiyyətin fəaliyyəti dövründə muxtar respublikaya, ümumilikdə, 3402 ədəd texnika və texnoloji avadanlıqlar alınıb. Təkcə 2021-ci il ərzində 4 milyon 494 min 177 manat dəyərində 327 müxtəlif adda texnika və texnoloji avadanlıq alınaraq gətirilib.

Diqqətə çatdırılıb ki, 2021-ci il ərzində sahibkarlara 3 milyon 838 min 100 manat dəyərində 249-u lizinq, 97-si nağd və köçürmə yolu ilə, ümumilikdə, 346 texnika və texnoloji avadanlıq lizinqə verilib. Lizinq və nağd yolla satılmış texnika və texnoloji avadanlıqlara 1 milyon 38 min 900 manat dəyərində dövlət büdcəsi hesabına 40 faiz güzəşt tətbiq edilib. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 17 noyabr tarixli “Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı ilə bağlı tədbirlər haqqında” Sərəncamına uyğun olaraq, ümumilikdə, 11 balsüzən maşın, 2 ana arı yetişdirmə qutusu, 105 arı pətəyi alınıb. Onlardan 5 arı pətəyi 2021-ci ildə arıçılıqla məşğul olan sahibkarlara satılıb. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 yanvar tarixli “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı tədbirlər haqqında” Sərəncamına uyğun olaraq 2021-ci il ərzində 69 texnika və texnoloji avadanlıq lizinq və nağd yolla kiçik ailə təsərrüfatı sahiblərinə verilib.

2021-ci il ərzində 4 milyon 320 min 600 manat dəyərində 8344 ton karbamid gübrəsi alındığını bildirən cəmiyyətin sədri bunun 7542,3 tonunun güzəştli şərtlərlə torpaq mülkiyyətçilərinə verildiyini qeyd edib.

Vurğulanıb ki, cəmiyyət tərəfindən torpaq mülkiyyətçiləri üçün münasib qiymətlərlə 22 adda olmaqla, ötən il ərzində 43 min 405 manat dəyərində aqroservis işləri görülüb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

# Humanitar aksiyalar muxtar respublikada insan amilinə verilən ən yüksək dəyərdir

Respublikamızda və onun ayrılmaz tərkib hissəsi olan diyarımızda müasir tibb ocaqlarının tikilib istifadəyə verilməsi, insanların sağlamlıqlarının qorunması, əhalinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsi daim diqqət mərkəzində saxlanılır. Muxtar respublikanın şəhər və rayon mərkəzlərində yerləşən səhiyyə ocaqlarında yaradılan şərait tibb işçilərinin insanların sağlamlığının qayğısına daha yaxşı qalmasına geniş imkanlar açır. İnsanların sağlamlıqlarına qovuşmalarına köməklik etmək kimi humanist addımlara isə diyarımızda tez-tez rast gəlirik. Naxçıvan şəhərindəki xəstəxanalar da yerində xidmət göstərməklə yanaşı, öz həkim kollektivi ilə birlikdə ucqar dağ kəndlərinə gedərək humanitar aksiyalar həyata keçirir. Yüksəkixtisaslı həkim briqadalarının yurdumuzun hər bir kəndinə, şəhərinə gedərək humanitar tibbi aksiyalar keçirməsi ilə yanaşı, Bakı şəhərindən yüksəkixtisaslı mütəxəssislərin dəvət olunaraq müxtəlif cərrahi əməliyyatların aparılması, humanitar tibbi aksiyaların keçirilməsi ənənə halını alıb. Belə tədbirlərin davamı olaraq yanvarın 12-də Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının direktoru Azər İsmayılovun rəhbərliyilə 15 nəfərdən ibarət yüksəkixtisaslı həkim heyəti növbəti dəfə muxtar respublikamıza dəvət olunaraq Naxçıvan Diaqnostika Müalicə Mərkəzində humanitar tibbi aksiyaya start verilib. Onlar 13 dekabr 2022-ci il tarixdən şəhid ailələri, qazilər, qazi ailələri və aztəminatlı ailələr arasında müayinələrin və müalicələrin ödənişsiz olduğu tibbi aksiyaya başlayıblar.

Qeyd edək ki, aksiya müddətində pasiyentlər cərrahi, hematoloji, uroloji, nefroloji, proktoloji, oftalmoloji və digər tibbi xidmətlərlə əhatə olunublar. Həkim heyəti tərəfindən əməliyyat olunması tövsiyə edilənlərin pulsuz cərrahiyyə əməliyyatı da aparılır.

Xatırladaq ki, müraciət edən pasiyentlərin hamısını tibbi xidmətlə təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən lazımi şərait də yaradılıb. Aksiya çərçivəsində Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin tibbi heyəti Bakıdan gələn həkimlərlə birgə əhaliyə xidmət göstərir. Bütövlükdə, aksiyanın ilk günü 352 müayinə və cərrahi əməliyyat aparılıb. Əməliyyat olunanlar həkim nəzarəti altındadır. Onlardan 2 nəfər tam yaxşılaşma ilə artıq evə buraxılıb.

Humanitar tibbi aksiya bu gün davam etdirilir. Biz də həkimlərin bir neçəsi ilə həmsöhbət olduq.

Diaqnostika Müalicə Mərkəzinin baş həkimi ***Nihad Seyidov:***

– Bu gün səhiyyə müəssisələrimizdə dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla müayinə və müalicə işləri aparılır. Nəticədə, yerli həkim kadrları tərəfindən müstəqil şəkildə TUR, açıq ürək, ürək damarlarına stend qoyulması, laparoskopik, LOR, göz və digər mürəkkəb cərrahiyyə əməliyyatları aparılmasına nail olunub. Bu da



əhalinin müayinə və müalicə üçün başqa ölkələrə üz tutmasının qarşısını alıb. Aztəminatlı ailələrdən olan xəstələrin muxtar respublikadan kənara getmədən mürəkkəb cərrahi əməliyyatların təşkili onlara həm maddi, həm də mənəvi dəstəkdir. Yaradılan bu unikal şəraitə görə kollektivimiz adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığımı bildirirəm.

Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının direktoru, həkim-cərrah ***Azər İsmayılov***la əməliyyat öncəsi həmsöhbət oluruq. Həkim deyir ki, xəstəliklərin müayinə və müalicəsində daim yeni metodların öyrənilməsi və tətbiq edilməsi hər bir tibb işçisinin gündəlik fəaliyyətinin tərkib hissəsi hesab olunur. Bu baxımdan da belə tədbirlərin keçirilməsi çox əhəmiyyətlidir. Bu tipli tədbirlər müayinə və müalicəni daha əlçatan etməklə yanaşı, muxtar respublikadan kənarda öz dərdinə dəva axtaran insanların da sayını azaldır. Dəfələrlə muxtar respublikanın müxtəlif səhiyyə ocaqlarında humanitar aksiyalarda iştirak etdiyini vurğulayan həkim bildirir ki, hər səfər zamanı Naxçıvanın təkcə tibb ocaqlarını deyil, ümumilikdə, bütün sahələrdə inkişafını görmək, muxtar respublikada tibbi xidmətin səviyyəsi böyük qürur yaşadır.

Bakı şəhərindən yurdumuza bu xeyirxah iş üçün gələn ümumi cərrah, professor ***Elmir Bəşirov***: – Səhiyyə sistemində son illər uğurlu islahatlar aparılıb, tibb müəssisələrinin maddi-texniki bazası və kadr potensialı gücləndirilib, bütövlükdə, səhiyyə sahəsində böyük nailiyyətlər əldə edilib. Muxtar respublika rəhbərinin də sosial siyasətinin əsas prioriteti olan səhiyyə sistemində qarşıya qoyulan bütün vəzifələr uğurla yerinə yetirilir. Keçirilən humanitar tibbi aksiyalar da görülən bu işlərin tərkib hissəsidir. Naxçıvan şəhəri çox təmiz, gözəl və müasirlik ilə qədimliyin vəhdət təşkil etdiyi bir diyardır.

Diaqnostika Müalicə Mərkəzinin şöbə müdiri ***Ənvər Şıxəliyev*** 40 ildən artıqdır ki, anestezioloq-reanimatoloq kimi fəaliyyət göstərir. O, Azərbaycan Respublikasının Əməkdar həkimidir. Tələbəlik illəri və fəaliyyətə başladığı vaxtlar sovetlər dönəminə təsadüf edən həkim deyir ki, həmin vaxtlarda belə yüksək şəraitə malik səhiyyə ocaqlarından söhbət gedə bilməzdi. Bu gün səhiyyə ocaqlarımıza girəndə



insan qürurlanır. Biz həkimlərin ən ümdə borcu insanlara tibbi xidmət göstərmək, onların sağlamlığının keşiyində dayanmaqdır. Bu işdə dövlətimizə arxalanırıq. Humanitar aksiya çərçivəsində onlarla insan əməliyyat edilərək öz sağlamlığına qovuşur. Bu tədbirlər həm də insanlara maddi cəhətdən dəstək olur.

***Məhəmməd Vəliyev*** gənc olmasına baxmayaraq, təkcə muxtar respublikada deyil, diyarımızdan kənarda da tanınan cərrah-oftalmoloqlardandır. O təkcə Naxçıvanda keçirilən humanitar aksiyalarda insanlara yardım etmir. Bir neçə beynəlxalq humanitar aksiya iştirakçıları ilə dünyanın yoxsulluqdan əziyyət çəkən ölkələrində olub. Deyir ki, ötən il Afrika qitəsinin Mali Respublikasının paytaxtı olan Bomako şəhərində 250-dən çox əməliyyat və 1000-dən çox müayinə aparıb. Orda təlimlər keçib.

Bakı şəhərindən gələn digər bir həkim-oftalmoloq ***Vüsalə Əsədova*** ilə həmsöhbət oluruq:

– Tibbi müayinələr zamanı həkimlər tərəfindən profilaktik baxış keçirilir, sağlamlığa dair məlumatlar və xəstəliklərə səbəb olan risk faktorları ilə bağlı tövsiyələr verilir. Xəstəlik aşkar olunduğu halda pasiyentlər yerində müalicəyə cəlb olunurlar. Həkimlik dünyanın ən gözəl və çətin, şərəfli peşəsidir. Naxçıvanda özünü doğma evimdəki kimi hiss edirəm. Belə bir diyarda insanlara şəfa bəxş etmək, qaranlıq bir gözlərin nurunu yenidən qaytarmaq kimi gözəl heç nə ola bilməz bu həyatda. Bu tədbirləri təşkil edənlərə minnətdarlığımı bildirirəm.

Şəhid leytenant Yadulla Nəcəfovun anası Culfa şəhər sakini ***Xuraman Zeynallı*** keçirilən aksiyadan yararlanıb. O, ürək ağrıları şikayəti ilə həkimə müraciət edib və üzərində koronar angioqrafiya müalicəsi aparılıb.

Xuraman Zeynallı onu da bildirdi ki, ötənilki aksiyalarda həyat yoldaşı Məhəmməd Nəcəfovun da üzərində təmənnasız açıq ürək əməliyyatı aparılıb. Hazırda vəziyyəti yaxşıdır. Xuraman ana şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq etdi.

Culfa rayon Milax kənd sakini ***Bahar Novruzova***nın ürəyi minnətdarlıq hissi ilə dolub daşır. O deyir: – Muxtar respublikamızdakı xəstəxanalarda hər cür şərait var, həkimlər də əlindən gələni edir hər zaman. Bu gün buraya gözlərimi müayinəyə gələndə Bakı şəhərindən də qonaqlarımız olduğunu eşitdim. Sağ olsun, Vüsalə qızım gözlərimi müayinə etdi. Dərmanlar yazdı. Allah bu şəraiti yaradanlardan razı olsun. Dövlətimiz var olsun. Mən bir ana kimi bu şəraiti yaradanlara ömrünüz duz dağına dönsün, Allah da sizi qorusun, – deyirəm.

*Bir neçə həkim və şəfa tapmağa gələn insanla etdiyimiz söhbətlər, sakinlərdən, gələn qonaqlardan eşidib qələmə aldığımız cümlələr bir anlıq “tərifi” yerə göyə sığdırılmayan illərə aparır insanı... Həmin illər ki, hər tərəfdən bağlı bir ölkədə yaşayır və elə bilirdik ki, hər şeyin ən yaxşısı bizdədir. Sən demə, qollarımızı bağlayan əsarət zəncirinin ətrafında çox gözəl və müasir bir dünya var imiş. Biz bunu müstəqillik qazanandan və Vətənimizin səmasında əbədiyyət Günəşi doğulandan sonra gördük. Bəli, o Günəşin şəfəqlərinin parlaqlığı bizi bu gözəl günlərə çıxardı. İnsanların bir-birini satmadığı, əksinə, əlindən tutduğu günlərə. Həkimlərin heç bir qarşılıq gözləmədən insanlara şəfa bəxş etdiyi günlərə.*

**✍ Ramiyyə ƏKBƏROVA**
**Hüseyn ƏSGƏROV**

# NAXÇIVANIM GÖZ NURUM

**Prezident İlham ƏLİYEV:** ***Muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır.***





**Dünənim necəydi, bu günüm necə,**
**Bu gündən dünənə boylanırıq biz.**
**Ağrımız, acımız qalıb dünəndə,**
**Bu günün nuruna boyanırıq biz.**

**Bu gün Naxçıvanı görənlər deyir:**
**– Ey cənnət gəzənlər, cənnət burdadır.**
**Torpağa, vətənə, insana, elə**
**Məhəbbət burdadır, hörmət burdadır.**

**Yurdu qarış-qarış dolaşmışam mən,**
**Bəzənib gəlintək Kotam, Sədərək.**
**Tanınmaz olubdu Naxçıvan bu gün**
**Şəhərdən sonuncu sərhədinədək.**

**Hər qarış torpaqda alın tərimiz,**
**Hər güldə, çiçəkdə göz nurumuz var.**

**Məğrur yaşayıbdı burda babalar,**
**Bizim də dağlar tək qürurumuz var.**

**Ən xoş sabahlara yol gedirik biz,**
**Ən xoş arzulara qanad kimiyik.**
**Darda, çətində də əyilmərik biz,**
**Odda bərkimişik – polad kimiyik.**

**Yurdun palıdları, çinarları tək**
**Torpağa kök atıb ucalırıq biz.**
**Naxçıvan günbəgün cavanlaşır, bax,**
**Naxçıvan gəncləşir – ucalırıq biz.**

**Naxçıvan – göz nurum, bəxtiyarlığım,**
**Naxçıvan – düşmənə göz dağım mənim.**
**Bu yurddan güc alıb azadlıq eşqim,**
**Ucalıb üçrəngli bayrağım mənim.**

Asim YADİGAR
















**İtmişdir**

Naxçıvan şəhəri, “20 Yanvar” küçəsi 39-da yaşamış Abazərova Qüdrət Qasım qızının və digərlərinin adına olan 1189 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Telli Məmmədova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 39